Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 NOYABR 2022-Cİ İL № 021 (168)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## GÜRCÜSTAN PARLAMENTİ DEOLİQARXİZASİYA HAQQINDA QANUNU QƏBUL EDİB



Gürcüstan parlamenti deoliqarxizasiya (oliqarxsızlaşdırma) haqqında qanunu birinci oxunuşda qəbul edib. Noyabrın 2-də parlament sessiyasında müzakirəyə çıxarılan sənəd noyabrın 3-ü səsə qoyularaq 80 deputatın dəstəyi ilə qəbul edilib, 9-u isə layihənin əleyhinə səs verib.

Hakimiyyət qanun layihəsinin Ukraynadakı bənzəri əsasında hazırlandığını və oxşar məzmuna malik olduğunu bəyan edib.

Yeni qanun layihəsinə görə, oliqarxlar xüsusi dövlət reyestrinə daxil ediləcəklər. Reyestrin yaradılması və tətbiqi də daxil olmaqla əlaqəli qaydalar Gürcüstan parlamenti tərəfindən təsdiq ediləcək.

Layihəyə əsasən, oliqarx kimi təsdiqlənmiş şəxslərin xüsusilə də siyasi sahə ilə əlaqəli müəyyən maliyyə fəaliyyətləri məhdudlaşdırılacaq.

Belə ki, onların siyasi partiyaları dəstəkləmək məqsədilə müəyyən donasiyalar etməsinə, seçki prosesində siyasi partiyaları, siyasi kampaniyaları maliyyələşdirməsinə, siyasi tələblərlə nümayiş və toplantılar keçirməsinə, həmçinin özəlləşdirmə zamanı dövlətə məxsus genişmiqyaslı müəssisələri satın almasına icazə verilməyəcək.

Yeni qanun tətbiq edildiyi vaxtdan etibarən 10 il müddətində qüvvədə olacaq.

Xatırladaq ki, deoliqarxizasiya haqqında qanunun qəbul edilməsi Aİ-nin Gürcüstana namizəd statusu verilməsi üçün 12 tövsiyəsindən biridir.

## İRAKLİ QARİBAŞVİLİ TÜRKİYƏDƏKİ TERROR AKTI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI VERİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili öz tviter hesabında Türkiyədə baş vermiş partlayışla bağlı başsağlığı verib və xəsarət alanların tezliklə sağalmasını arzulayıb.

***“İstanbulda baş verən partlayışla əlaqədar Gürcüstan hökuməti və xalqı adından türk xalqına, Prezident Rəcəb Tayyib Ərdoğana və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə sağalmasını arzulayırıq və Türkiyə üçün dua edirik”,*** – deyə Baş nazir yazıb.

Qeyd edək ki, noyabrın 13-də Türkiyənin İstanbul şəhərinin İstiqlal küçəsində terror aktı törədilib. Nəticədə 6 nəfər həlak olub, 81 nəfər yaralanıb. Türkiyənin Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, terror aktını törədən Suriya əsilli qadın Ahlam Albashır saxlanılıb. O, PKK terror qruplaşması ilə əlaqəli olduğunu etiraf edib.

## İRAKLİ QARİBAŞVİLİ AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜB



Baş nazir İrakli Qaribaşvili Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşüb. Görüşdə regiondakı hərbi-siyasi vəziyyət müzakirə edilib.

Gürcüstana səfər edən Z.Həsənov nümayəndə heyəti ilə birgə əvvəlcə Tbilisinin mərkəzindəki Qəhrəmanlar meydanını ziyarət edib və Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olanların abidəsi önünə əklil qoyub.

Sonra müdafiə naziri Gürcüstanın Baş naziri ilə görüşüb.

Görüşdə Azərbaycan-Gürcüstan münasibətlərinin dostluq və qarşılıqlı etimad üzərində qurulduğu qeyd olunub. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin oktyabr ayında Gürcüstana işgüzar səfərinin xüsusi əhəmiyyətə malik olduğu qeyd edilib və ümumilikdə dövlət başçılarının mütəmadi görüşlərinin əlaqələrimizin daha da güclənməsinə təkan verdiyi vurğulanıb.

Tərəflər regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı şəkildə dəstəklənməsinin vacibliyini qeyd edib, ikitərəfli hərbi əməkdaşlığın inkişafının bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyini bildiriblər.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze də iştirak edib.

Səh. 2 REVERANS - Azər Musaoğlu yazır
Səh. 3 SAĞLAM BƏDƏNDƏ SAĞLAM RUH OLAR - Hacı Bəkiroğlu yazır
Səh. 3 MUSTAFA KAMAL ATATÜRKÜN ANIM MƏRASİMİ KEÇİRİLİB
Səh. 4 MÜƏLLİMİN PEŞƏ ETİKASI KODEKSİ
Səh. 5 ƏDƏBİYYATÇIDAN RİYAZİYYATÇI OLMAZ! - Anar Rafiqoğlu yazır
Səh. 5 ÜMİD HEÇ VAXT ÖLMƏZ - İnara Mamedova yazır
Səh. 7 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır



# REVERANS

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Deyəsən Platon deyib: “Tərif əsl fikirlərini gizlədənlərin söylədikləri yalandır”... Bir də ki, nə fərqi var, kim deyib – Platon deyib, Aristotel və ya Əli, Vəli, Pirvəli deyib, əsas odur, yaxşı deyib, düz deyib, lap əcəb deyib.

Deyir, niyə filan qəzet kimi siz də tərif yazmırsınız, elə tənqid yazırsınız, axı təriflənəsi adamlarımız heç yoxdurmu?..

“Axmağın tərifindənsə ağıllının tənəsi yaxşı deyilmi” deyə cavab verib, dalıyca da çırtma çalaraq qışqırmaq istəyirsən:

“Ətri xoş,
Dadı meyxoş,
Görən yerdə qoymaz,
Yeyən yedikcə doymaz,
Gəl, gəl, ay müştəri!
Gəl, gəl, ay müştəri!..”

Əvvəla, filan qəzet kimi tərifləyir, necə tərifləyir, nə zaman tərifləyir, özü bilər. Bizim qəzet filan-bəhmən qəzet olmaq zorunda deyil. Tərifləyən bir qəzet yetmirmi? Sonra da ki, xiyar, pamidor satırıq bəyəm, tərifləyək?..

Deyir, heç olmasa yubileylərindəsə bir-iki kəlmə söz yazın.

Bəlkə bir-iki rumka da sağlıq deyək? Lülə, tikə, basdırma, yarpaq dolması, kələm turşusu, yanında da kal pamidor turşusu, gürcü xəngəli, plov, Moskovski salat və daha nələr, nələr düzülmüş süfrənin də şəklini manşetə çıxaraq ki, rəngli olsun?..

Demək istəyirsən ki, ay ağsaqqal, ay baba, ay yaşlı nəslin nümayəndəsi, çənənin yağını sil, axı filan qoca müəllimin, şairin, deputatın, kənd sovetinin, kolxoz sədrinin, briqadirin, aqronomun, dəlləyin, pullunun, zorrunun təriflənməsini niyə belə canfəşanlıqla arzulayırsan, bundan sənə nə, qohumun deyil, qonşun deyil, ayrı dərdin-azarın yoxdurmu, gedib çayxananda dominonu oynasan, nəvələrinə nağıldan-zaddan danışsan, sənin problemin elə budurmu?

Deyir, niyə elə problemdən yazırsız, bir az da yaxşı şeylərdən yazın.

Demək istəyirsən ki, görünən dağa bələdçi lazım deyil, yaxşı elə yaxşılığındadır da, problemləri işıqlandırırıq ki, bəlkə bir əncam çəkən ola, həllini tapa. Sənə nanotexnologiya dövründə tövləyə oxşayan məktəbin problemlərinin göstərilməsimi daha faydalıdır, ya o məktəbdə 80 yaşını haqlamış əli təbaşir tutmayan müəllimin şəninə tariflər yazmaqmı?

Oxuyan tövlədə də oxuyar deyib, başlayır öz dövrünü, sovet hökumətini ağzı sulana-sulana tərifləməyə, müəllimlərinin onu “eşşək kimi döyə-döyə adam eləməsindən” *(öz sözüdür haa)* tutmuş əsgərlikdə “stroybatda eşşək kimi işləyə-işləyə kişi olmasına” *(bu da öz sözüdür haa)* qədər danışaraq “indiki gəncləri” də bəyənmədiyini, onları yaşlılara qarşı çox hörmətsiz olduqlarını pioner andı içirmiş kimi çoxdandır əzbərlədiyi cümlələrlə deyib uzaqlaşır.

Arxasıyca qışqırmaq istəyirsən ki, ay ağsaqqal, ay əmi, ay dayı, axı Stalin ölüb, ölüb, ölüb. Şəxsiyyətə pərəstiş dövrü deyil daha. Kiməsə tərifləmək sənin nə yaşına-başına yaraşar? Bəsdir onun-bunun qarşısında reverans etdiniz. Əl çəkin bu lazımsız hərəkətdən, jestdən, vərdişdən...

Düşünürsən, bəlkə saqqalın ağ deyil deyə səni saymır, bir də yadına düşür ki, qozbeli qəbir düzəldər, üzərində də tərifli epitafiyalı baş daşı, tərifli haa... Məzarı qarşısında da “yevropeyski” bir reverans.

Allah rəhmət eləsin!

## PREZİDENT: GÜRCÜSTANDA 100 MİNDƏN ÇOX RUSİYA VƏTƏNDAŞI MƏSKUNLAŞIB

Rusiyada qismən səfərbərlik elan edildikdən sonra Gürcüstanda 100 mindən çox Rusiya vətəndaşı məskunlaşıb. Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili “France Inter” radiosuna açıqlamasında deyib.



O qeyd edib ki, 2022-ci il sentyabrın 21-dən indiyədək 700 min Rusiya vətəndaşı Gürcüstana daxil olub, onlardan 600 mini daha sonra Avropa ölkələrinə, Türkiyə və ya Ermənistana gedib.

## CARİ İLİN YANVAR-OKTYABR AYLARINDA ALMANİYADA 6 908 GÜRCÜSTAN VƏTƏNDAŞI SIĞINACAQ ÜÇÜN MÜRACİƏT EDİB




Almaniyaya mövsümi iş üçün gələn hər 10 Gürcüstan vətəndaşından azı 5-i vətəninə geri qayıtmayıb.

Bu barədə Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarə (BAMF) məlumat yayıb.

Bildirilib ki, həmin Gürcüstan vətəndaşları sonradan qaçqın statusu almaq üçün BAMF-nin yerli şöbələrinə müraciət ediblər: ***“Bu ilin yanvar-oktyabr ayılarında federal idarəyə 6 908 Gürcüstan vətəndaşının sığınacaq üçün müraciəti daxil olub. Təkcə oktyabr ayında bu ölkə vətəndaşlarının qaçqın statusu üçün etdikləri müraciətlərin sayı 839 olub. Yanvar-oktyabr ayları arasında sığınacaq istəyi rədd edilən 746 Gürcüstan vətəndaşı yenidən federal idarəyə müraciət edib”.***

Qeyd edək ki, Gürcüstan vətəndaşlarının Almaniyanın kənd təsərrüfatı sahəsində qanuni şəkildə işləməsinə 2021-ci ilin mart ayında icazə verilib. Dövlət proqramına əsasən, Almaniyaya işləməyə gedən Gürcüstan vətəndaşları 18-60 yaş arasında olmalıdır. Bundan əlavə, gəlməzdən üç ay əvvəl Almaniyada olmamalı, sağlam və məhsul yığımında təcrübəyə malik olmalıdırlar. Eləcə də işçilərin alman və ya ingilis dilini cüzi olaraq bilməsi tələb edilir. Eyni zamanda mövsümi iş üçün Almaniyaya gedən Gürcüstan vətəndaşlarının bu ölkədə yalnız üç ay qalmasına icazə verilir.

| Vətəndaşlıq mənsubiyyəti | Ümumi | İlk müraciət | İkinci müraciət |
|---|---|---|---|
| 1. Suriya | 51.563 | 50.180 | 1.383 |
| 2. Əfqanıstan | 30.926 | 26.497 | 4.429 |
| 3. Türkiyə | 15.957 | 15.018 | 939 |
| 4. İraq | 13.750 | 12.779 | 971 |
| 5. Gürcüstan | 6.908 | 6.162 | 746 |
| 6. İran | 5.204 | 4.396 | 808 |
| 7. Naməlum* | 4.035 | 3.767 | 268 |
| 8. Somali | 3.599 | 3.256 | 343 |
| 9. Eritreya | 3.159 | 3.079 | 80 |
| 10. Moldova | 4.551 | 2.193 | 2.358 |
| Ümumi | 181.612 | 159.669 | 21.943 |

## HÖKUMƏT ÖLKƏNİN ELEKTRİK ENERJİSİ SEKTORUNA 3 MİLYARD DOLLAR HƏCMİNDƏ İNVESTİSİYA CƏLB ETMƏK İSTƏYİR

Gürcüstan hökuməti növbəti üç ildə ölkənin elektrik enerjisi sektoruna 3 milyard ABŞ dolları məbləğində investisiya cəlb etmək niyyətindədir. Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hökumətin iclasında məlumat verib.



O, ölkənin elektrik enerjisi sistemi üzrə yeni sxemin hazırlandığını və investisiyaların da bu sxem üzrə cəlb olunacağını bildirib.

Baş nazir deyib ki, enerji layihələrinə hökumətin dəstəyi elektrik stansiyalarının istifadəyə verildiyi ildən sonra 15 il müddətinə qüvvədə olacaq.

Bu, qiymətlərin də tənzimlənməsində mühüm rol oynayacaq və investora 15 il müddətində qiymətlərlə bağlı təminat verəcək. Hökumət yalnız ümumi istehsal gücü 1500 MVt olan elektrik stansiyalarının tikintisi layihələrinə dəstək verəcək. Lakin bu dəstək, təqribən 800 MVt gücü olan “Namaxvani”, “Nenskra” və “Xudoni” kimi kiçik SES-lərə şamil edilməyəcək.

## MUSTAFA KAMAL ATATÜRKÜN ANIM MƏRASİMİ KEÇİRİLİB



Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün xatirəsi paytaxt Tbilisidə ehtiramla anılıb.

Atatürkün vəfatının 84-cü ildönümü ilə əlaqədar Türkiyənin Gürcüstandakı səfirliyində anım mərasimi keçirilib.

Tədbirdə Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay və diplomatik nümayəndəliyin əməkdaşları çıxış edərək M.K.Atatürkün həyat və fəaliyyəti, Türkiyənin dünyada artan nüfuzu və qüdrəti haqqında məlumat veriblər.

Qeyd edək ki, Mustafa Kamal Atatürk 1938-ci il noyabrın 10-da İstanbulda Dolmabağça sarayında vəfat edib.

## TBİLİSİDƏ AZƏRBAYCANIN ZƏFƏR GÜNÜNƏ HƏSR EDİLMİŞ KONSERT KEÇİRİLİB



Tbilisidə Azərbaycanın Zəfər Gününə həsr edilmiş konsert keçirilib. Tədbirdə Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay, eləcə də Gürcüstanın dövlət və hökumət qurumlarının, Gürcüstan parlamentinin üzvləri, hərbi attaşelər, Gürcüstan əsilli Qarabağ şəhidlərinin ailə üzvləri və yaxınları, azərbaycanlı və gürcü ictimai-siyasi xadimlər, incəsənət xadimləri və ziyalılar iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən səfir Faiq Quliyev qeyd edib ki, Ermənistan rəhbərliyi 30 il boyunca münaqişənin sülh yolu ilə həllindən boyun qaçırıb, əksinə Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibələr doktrinası ilə hədələməyə başlayıb, danışıqlar prosesini darmadağın edən absurd bəyanatlar verib. Diplomat bildirib ki, Ermənistanın məsuliyyətsiz davranışlarının son nöqtəsi olaraq 2022-ci il 27 sentyabr tarixində ermənilər cəbhə xəttinin müxtəlif istiqamətlərində xülya etdikləri yeni müharibəyə başladılar:

***"Şübhəsiz ki, Ermənistanın növbəti təcavüz cəhdi Azərbaycanın dəmir yumruğu ilə qarşılanmış, şücaətli nizami ordumuz 44 gün ərzində hərb meydanında düşmənin belini qıraraq məhv etmiş, işğalçı hakimiyyəti kapitulyasiya aktı imzalamağa məcbur etmişdir. Beləliklə, Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış sərhədlərində nəzarəti bərpa etmiş, 1 milyona yaxın azərbaycanlının fundamental hüququ bərpa edilmiş və 30 ilə yaxın bölgəyə ən ciddi təhdidləri yaradan münaqişəyə hərbi-siyasi yolla son qoyulmuşdur".***

Səfir əlavə edib ki, 2-ci Qarabağ müharibəsində 50 milyonluq dünya azərbaycanlıları Vətən torpaqlarının azad edilməsi naminə dəmir yumruq kimi birləşərək ön və arxa cəbhədə mükəmməl birlik nümayiş etdirdi.

***"Mən xüsusi olaraq Gürcüstanda yaşayan yüz minlərlə soydaşımızın dəstəyini vurğulamaq istərdim. Sizlərin Azərbaycanın tarixi qələbəsinə önəmli töhfəniz şəksizdir. Vətən müharibəsinin ilk anlarından etibarən Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycana göstərdiyi doğma bağlılığı xalqımız tərəfindən əziz tutulmuşdur. Vətən müharibəsi dönəmində Gürcüstanda yaşayan yüz minlərlə soydaşımız tərəfindən səfirliyə könüllü yardım təşəbbüsləri və misilsiz həmrəylik təzahüləri davamlı şəkildə daxil olmaqda idi və bu, bütün 44 günlük Vətən müharibəsi dövründə davam etmişdir",*** - deyə səfir qeyd edib.

Daha sonra çıxış edən Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay Zəfər Günü və Dövlət Bayrağı günü münasibətilə Azərbaycanı təbrik edib. Səfir vurğulayıb ki, Türkiyə hər zaman Azərbaycanın haqlı mübarizəsində yanında olduğu kimi, Qarabağın yenidənqurma və inkişafında da dəstəyini davam etdirəcək.

***"Bu təbiidir, bu "bir millət, iki dövlət" anlayışının tələbidir. Azərbaycan da ən çətin günündə Türkiyədən qardaş köməyini əsirgəməmişdir. Çanaqqalada, Geliboluda çiyin-çiyinə savaşdıq. Biz də bunu yadımızdan çıxarmırıq. Füzuli Beynəlxalq Hava Limanında olduğu kimi, 20 oktyabrda Zəngilan Beynəlxalq Hava Limanının hörmətli prezidentlərimiz tərəfindən açılışı həmrəyliyimizin Qarabağın yenidənqurmasında da davam etdiyini göstərir. Azərbaycan savaşı qazanıb, Azərbaycan sülhü də qazanacaq",*** - deyə Türkiyə səfiri qeyd edib.

*Mənbə: apa.az*

## SAĞLAM BƏDƏNDƏ SAĞLAM RUH OLAR



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Sağlam yaşamaq insan üçün ən əsas məqsədlərdən biridir. Bu səbəblə tibb elmi bütün insanlıq baxımından ən çox rəğbət görən elm sahələrindən biri olmuşdur. Hz. Məhəmməd (s.ə.s.) də sağlam həyat ilə əlaqədar səhabələrinə bəzi tövsiyələr verməklə birlikdə özü də xəstələnməmək üçün səy sərf etmiş və xəstə olduğunda isə müalicə olmuşdur. Bir çox elm adamlarına görə, onun müalicə üsulları, ümumiyyətlə, dərman və tətbiqlər baxımından təfsilat ehtiva etməyən, çox istiqamətli fayda təmin edə bilən və hər kəsin rahatlıqla çata biləcəyi dərmanları ehtiva edir. Onun hər hansı bir xəstəlik qarşısındakı tövsiyələri müsəlmanlar arasında qüdsi bir formada qəbul edilərək vəhy məhsulu olduğu qəbul görülmüşdür. Məhz buna görədir ki, onun vəfatından dərhal sonra bir çox mövzuda olduğu kimi sağlamlıq mövzusundakı hədislərinə və sünnələrinə xüsusi bir əhəmiyyət ətf edilmiş və bu hədis və sünnələr ədəbiyyatda "Tibbi Nəbəvi" olaraq yerini almışdır.

Tibb sahəsində işləyənləri də el arasında ağ xalatlı mələklər adlandırıblar. Onların saf və təmiz olduqlarını göstərmək üçün də bəyaz xalatlar geyiniblər. Yəni ki, insanların bir növ qurtarıcıları kimi biliniblər. Bəli, həkimlər loğmanlıqları sayəsində insanların dərdlərinə çarə olmağa çalışır, baş verən xəstəlikləri qurtarmaq üçün yeni dərmanlar, yeni tədavi yolları tapmağa çalışırlar. Bunun bariz nümunəsi olaraq yaxın keçmişdə yaşamış olduğumuz COVID-19 pandemiyası zamanında həkimlərin necə çətinliklər qarşısında insanların yardımına qaçdıqlarını, hətta bəzi həkimlərin canları bahasına insanları bu xəstəlikdən qurtarmağa çalışdıqlarını gördük. Düzdür, bu fürsəti əldən vermək istəməyərək, hər sahədə olduğu kimi, tibb sahəsini də gəlir mənbəyinə çevirənlər az deyil. Xəstəni müştəri gözündə görən həkimlərə də az rast gəlinmir. Son zamanlarda insan xəstələnməyə də peşman olur. Həkimin yazdığı dərman maaşın üçdə ikisini aparır. Hələ bəzi həkimlərin dönə-dönə "bax, filan aptekdən al haa" deyə tapşırdıqları dərmanlarsa maaşın üstünə pul əlavə olunaraq alınır.

Əziz oxucu, bu yazıya nə gərək vardı deyə düşünə də bilərsən. Məni bu yazıya vadar edən səbəb şəxsiyyət vəsiqəsinin üstündə olmayan xəstənin xəstəxanaya qəbul edilməməsi hadisəsidir. Əgər vətəndaş yolda gedərkən anidən vəziyyəti pisləşərək xəstəxanaya aparıldıqda vəsiqəsi üstündə deyilsə, ölməlidirmi və ya ağrı üzündən sənədini götürmə macalı olmayıbsa, köməksizmi buraxılmalıdır? Bu, yenə də yuxarıda vurğuladığımız mənaya gəlir: xəstə müştəri olaraq qəbul edilir. Əgər şəxsiyyət vəsiqəsi yanında deyilsə xəstə müəssisədə qeydiyyata alına bilmir, qeydiyyata alınmayan vətəndaş da pul ödəmir. Bir də bu vəziyyətin ikinci tərəfi var. Hansı ki, bir çox vətəndaşın da qarşılaşdığı durumdur. Vəziyyəti ağır olan xəstə reanimasiyaya alınır, öldüsü və ya qaldısı haqqında yaxınlarına heç bir məlumat verilmir və dövət tərəfindən vətəndaşa ayrılan sığorta tükəndikdən sonra xəstə qohumlarına ya ölü halında, ya da bir neçə günlük ömrü qalmış vəziyyətdə təhvil verilir. Təbii ki, bu sadaladıqlarımız bütün həkimlərə və ya bütün xəstəxanalara şamil edilmir. Çünki vicdanlı, imanlı və namuslu həkimlərimiz də çoxdur.

Əziz həkimlər, biz xəstələndikdə ümidimizi öncə Allaha, sonra isə sizlərə bağlayırıq, gəlin bizim bu ümidlərimizi puç etməyin. Axı keçmişlərimiz sağlam bədəndə sağlam ruh olar deyiblər. Siz vətəndaşların sağlamlıqlarını təmin edin ki, sağlam ruhlu insanlarımız da sağlam gələcək qura bilsinlər.

# GÜRCÜSTANIN TƏHSİL VƏ ELM NAZİRİNİN SƏRƏNCAMI N57/ნ

YENİ YOL qəzeti

**2010-cu il 14 iyul**
**Tbilisi şəhəri**
**Müəllimin Peşə Etikası Kodeksinin təsdiq edilməsi haqqında**

"Ümumi təhsil haqqında" Gürcüstan qanununun 26-cı maddəsinin birinci bəndinin "მ[1] ლ" altbəndinin, "Gürcüstanın Təhsil və Elm Nazirliyinin müddəanın təsdiqlənməsi haqqında" Gürcüstan hökumətinin 2004-cü il 21 may N37 sərəncamı ilə təsdiqlənmiş müddəanın 2-ci maddəsinin 2-ci bəndinin "ვ.ი" altbəndi və 3-cü maddəsinin 2-ci bəndinin "მ" altbəndi əsasında sərəncam qəbul edirəm:

1. Əlavə edilmiş Müəllimin Peşə Etikası Kodeksi təsdiq edilsin.
2. Sərəncam yayımlanan kimi qüvvəyə minsin.

**D. Şaşkin**

## Müəllimin Peşə Etikası Kodeksi
## Başlıq I
## Ümumi müddəalar

**Maddə 1. Anlayış və məqsəd**

1. Müəllimin Peşə Etikası Kodeksi (bundan sonra – "Etika Kodeksi") ümumtəhsil müəssisəsi müəlliminin peşə davranışı qaydalarını müəyyən edir. Həmin qaydalarla müəllimin peşə kompetensiyasının keyfiyyəti qiymətləndirilir və müəllimdən şagirdlər, valideynlər, müəllimlər və məktəbdə işləyən digər şəxslərlə münasibətdə bu qaydaların qorunması tələb olunur.
2. Etika Kodeksinin məqsədi müəllimin vacib peşə davranışının vahid qaydalarını tətbiq etməkdir.
3. Məktəbin daxili qaydası Etika Kodeksinə əsaslanmalıdır.

**Maddə 2. Tənzimləmə sahəsi**

Etika Kodeksi Gürcüstan vətəndaşı olan, xarici ölkə vətəndaşı olan və vətəndaşlığı olmayan, ümumtəhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan müəllimlərə aiddir.

## Başlıq II
## Etika Kodeksinin strukturu

**Maddə 3. Peşə kompetensiyası**

1. Müəllim peşə öhdəliyini yerinə yetirən zaman müstəqil, vicdanlı və qərəzsizdir.
2. Müəllim pedaqoji fəaliyyəti həyata keçirən zaman Gürcüstan qanunvericiliyi və Etika Kodeksinin normaları ilə hərəkət edir.
3. Müəllim şagirdlərdə demokratik və vətənpərvər dəyərlərin formalaşmasına dəstək olur.
4. Müəllim öz peşə fəaliyyəti, ədalətliliyi, qarşılıqlı hörməti, insan hüquqlarının müdafiəsi, sağlam həyat tərzi qaydaları və ətraf mühitin mühafizəsində şagirdlərə nümunə olur.
5. Müəllim Gürcüstan qanunvericiliyi ilə tətbiq edilmiş qaydaya əsasən şagirdlər, valideynlər, müəllimlər və məktəbdə işləyən digər şəxslərlə əlaqədar məlumatın gizliliyini qoruyur.
6. Müəllim öz fəaliyyəti zamanı həmişə punktualdır və səliqəli geyinir.
7. Müəllim etika normalarına uyğun, dolğun və şagirdlərin başa düşdüyü dildə danışır.
8. Müəllim pedaqoji fəaliyyəti üçün ayrılmış vaxtdan milli tədris planı ilə nəzərdə tutulmuş tədris məqsədlərinə nail olmaq üçün istifadə edir.
9. Müəllim məktəbin əmlakını qoruyur və məktəb resurslarından məqsədyönlü şəkildə istifadə edir.
10. Müəllim peşə və ya institusional üstünlüklərdən şəxsi məqsədləri üçün istifadə etmir.
11. Müəllim özünün davamlı peşəkar inkişafının qayğısına qalır.

**Maddə 4. Şagirdlərlə münasibət**

1. Müəllim təhsil prosesində yaranan çətinlikləri aradan qaldırmaq üçün şagirdin məsləhətçisi funksiyasını yerinə yetirir və şagird istəsə, ona şəxsi problemlərini həll etməkdə kömək edir.
2. Müəllim şagirdi şifahi və ya fiziki təhqir etmir, ona emosional (psixoloji) təzyiq göstərmir.
3. Müəllim öz şagirdinə qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa, əlavə ödənişli təhsil xidmətləri göstərmir.
4. Müəllim münaqişəli vəziyyətlərdə sakitliyi qoruyur, şagirdlərin fikrini dinləyir və obyektiv, ədalətli qərarlar qəbul edir.
5. Müəllim təhsil prosesi ərzində şagirdin sağlamlığının, şəxsi təhlükəsizliyinin və əmlakının qorunmasının qayğısına qalır.
6. Müəllim şagirdlərə nümunə olur və sağlam həyat tərzi üçün mühüm olan dəyərlərin, bacarıqların formalaşmasında kömək edir.
7. Müəllim şagirdlərlə münasibət zamanı mənəvi və əxlaqi normalara riayət edir.
8. Müəllim şagirdlərin fikrinə hörmət edir, onlara ideyalarını və baxışlarını sərbəst olaraq ifadə etmək üçün hər şəraiti yaradır.
9. Müəllim şagirdlərlə dini (dini maarifləndirmə fəaliyyəti ilə məşğul olan məktəblərin müəllimləri istisna olmaqla) və siyasi təbliğatla məşğul olmur.
10. Müəllim şagirdin fiziki və intellektual əməyindən və ya potensialından şəxsi məqsədləri üçün istifadə etmir.
11. Müəllim cinsi, irqi, dini, milli, etnik və sosial mənsubiyyətindən, əmlak vəziyyətindən və digər xüsusiyyətlərindən asılı olmayaraq bütün şagirdlərə bərabər diqqət göstərir, xüsusi təhsilə ehtiyacının olmasına və ya fiziki imkanları məhdud olmasına baxmayaraq bütün şagirdlərin keyfiyyətli təhsil almasının qayğısına qalır.

**Maddə 5. Valideynlərlə münasibət**

1. Müəllim şagirdin validyenləri ilə əməkdaşlıq edir və lazım gələn halda onlarla fərdi görüşlər keçirir.
2. Müəllim şagirdin validyenləri ilə əməkdaşlıq edir və onlarla münasibət zamanı nəzakətli davranır.
3. Hər tədris rübünün başlanğıcında müəllim valideynlərə tədris planı və seçdiyi tədris metodları barədə izahat verir.
4. Müəllim tələb və ehtiyaca uyğun olaraq şagirdin akademik iştirakı barədə valideynə vaxtında və fərdi şəkildə məlumat verir.
5. Müəllim sinif rəhbəridirsə, ehtiyac olduğu halda, vaxtında valideynlə əlaqə qurmaq üçün bütün valideynlərin əlaqə məlumatını saxlayır.
6. Müəllim şagirdin nizam-intizam pozuntusu barədə valideynə bildirir və şagirdin məktəbin daxili qaydaları ilə müəyyən edilmiş nizam-intizama riayət etməsinə dəstək olur.
7. Müəllim şagird məktəbə gəlmədiyi və ya onun şəxsi təhlükəsizliyi, sağlamlığı təhlükə altında olduğu halda dərhal valideynə məlumat verir.

**Maddə 6. Məktəb rəhbərliyi, müəllimlər və məktəbdə işləyən digər şəxslərlə münasibət**

1. Müəllim peşə təcrübəsinə və ya şəxsi xüsusiyyətlərinə baxmayaraq, məktəb rəhbərliyi, müəllimlər və məktəbdə işləyən digər şəxslərə bərabər hörmət bəsləməlidir.
2. Müəllim əldə etdiyi bilik və təcrübəni həmkarları ilə bölüşür və onlarla əməkdaşlıq edir.
3. Müəllim məktəb mandaturu ilə əməkdaşlıq edir və onun verdiyi məlumatı nəzərə alır.
4. Müəllim məktəb rəhbərliyi ilə əməkdaşlıq edir və məktəbin inkişafı üçün planlaşdırılmış tədbirlərə öz töhfəsini verir.

## Başlıq III
## Etika Kodeksinin pozulması

**Maddə 7. Etika Kodeksinin pozulmasına görə cavabdehlik**

Müəllim tərəfindən Etika Kodeksinin kobud və ya davamlı şəkildə pozulması Gürcüstan qanunvericiliyi və müəllimlə bağlanmış əmək müqaviləsinə müvafiq olaraq məsuliyyətə səbəb olur.

***Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA***



# ƏDƏBİYYATÇIDAN RİYAZİYYATÇI OLMAZ!

Bu gün bir az təhsildən yazmaq istəyirəm. Bəri başdan qeyd edim ki, bu yazdıqlarım hərdənbir öz-özümə səsli düşündüklərimdir. Yəni hökmən bu cür olmalıdır və ya ən doğrusu belədir deyib insanlara öyüd-nəsihət vermək deyil məqsədim. Qayıdaq mövzumuza. "Ədəbiyyatçıdan riyaziyyatçı olmaz!" – nə deməkdir bu? Burada, əlbəttə, nəzərdə tutulan o deyil ki, bir insan həm ədəbiyyatı, həm də riyaziyyatı sevə bilməz və ya bilə bilməz. Keçdiyimiz günlərdə yutub platformasında qarşıma bir video çıxdı. Videoda belə bir sual mövcud idi: "Uşağınız ədəbiyyatdan 10, riyaziyyatdan 5 bal alırsa, onu hansı fəndən hazırlığa göndərərdiniz?" Suala, videoda olduğu kimi, bu yazını oxuyanların da böyük əksəriyyəti, yəqin ki, riyaziyyat cavabı verəcəkdir. Çünki düşüncə tərzi odur ki, uşaq ədəbiyyatı onsuz da bilir, riyaziyyatdan isə zəifdir, onda riyaziyyatın üstünə düşülməlidir. Gürcüstan və Qafqazda riyaziyyat fənni, demək olar, bütün sahələrdə ali təhsil qapısını açmaq üçün zəruri olduğuna görə, burada valideynləri qınamaq və demək olmaz ki, niyə riyaziyyat? Çünki bizim ölkədə bunu sistem tələb edir. Avropada və təhsil yönündən inkişaf etmiş bir çox ölkədə isə, valideynlərin əksəriyyətinin düşüncə tərzi odur ki, uşaq əgər ədəbiyyatdan 10 bal alırsa, deməli, gələcəyin yaxşı yazıçısı, şairi və ya ədəbiyyatşünası ola bilər. Və beləcə uşağı güclü və həvəsi olduğu sahə üzrə özəl müəllimlərin, mütəxəssislərin yanına göndərib onun daha çox inkişaf etməsinə təkan verirlər. Bu, eyni zamanda uşağa özəl olduğu, istedadlı olduğu hissini verir və onda özünə güvən yaratmış olur.

Əks halda, əgər bir uşağa güclü və uğurlu olduğu mövzuları yox, daim zəif olduğu mövzuları xatırlatsanız, müsbət olduğu yox, sadəcə mənfi olduğu yönləri vurğulasanız bu, bir müddət sonra onda kompleks yaradacaq və o, özünü tədricən dəyərsiz hiss edəcəkdir. Nəticə etibarilə zamanla yaxşı olduğu mövzularda da geriyə doğru gedəcək. Çünki bir insanın həvəsini qırmaq onun gələcəyini əlindən almağa bərabərdir. Məsələn, bir uşağa "filankəsin qızı, oğlu riyaziyyatı su kimi içir, amma sən bilmirsən" demək yerinə, "filankəsin qızı, oğlu riyaziyyatı su kimi içir, amma sən də ədəbiyyatı mükəmməl bilirsən" demək, əmin olun ki, övladlarınızda daha yüksək motivasiya yaranmasına səbəb olacaq və özünü daha çox inkişaf etdirməyə çalışacaqdır.

İllərdir gənclərlə çalışan və cəmiyyətdə insanlarla sıx-sıx ünsiyyətdə olan biri olaraq rahatlıqla deyə bilərəm ki, bu dünyada bacarıqsız insan yoxdur. Hər kəsin üstün və bacarıqlı olduğu müəyyən sahələr var. Hətta, bəlkə də bunların bir qismini hələ heç özünüz də kəşf etməyibsiniz. Çünki, təəssüflər olsun ki, ölkəmizdə fərdi inkişaf kursları (xüsusilə də sənətə aid kursları nəzərdə tuturam) çox azdır. Biz "Aktyorluq, teatr və kino" kursları təşkil etdiyimizdə ora gələn gənclərin bir çoxunun heç özləri də inanmırdı ki, onların aktyorluq istedadı var. Çünki bu günə kimi onları bu sahədə yönləndirən, həvəsləndirən heç kəs olmamışdı. Sadəcə aktyorluqda deyil, sənətin rəsm, musiqi kimi digər növlərində də bir çox istedadların ulduzu parıldamamış sönür. Bir çox mənalı şeirlər, hekayələr işıqlanmadan tozlanıb gedir...

İnsanlarda bir qorxu mövcuddur. Görəsən mən bacararammı və ya bacarırammı? Əmin olun ki, bunun cavabını yoxlamadan bir qırağa çəkilərək heç bir zaman öyrənə bilməzsiniz. Özünüzə mütləq şans verin.

Qayıdaq yenə işin təhsil yönünə. Bir insanın konkret olaraq hansısa sahəni bilməməsi, ya da az bilməsi onun bəşəriyyətə yararsız biri olduğu anlamına gəlmir. Hər adamın güclü olduğu sahələr qədər, zəif olduğu sahələr də mövcuddur. Böyük şəxsiyyətlərin, alimlərin adını hallandırarkən, onların mütəxəssis olduğu ən çoxu iki, ya da üç sahəni qeyd etmək mümkündür. Məsələn, Albert Eynşteyn dedikdə avtomatik olaraq ağıla fizika gəlir. Necə ki, Mendeleyev deyəndə kimya, Dostoyevski dedikdə isə ağıla ədəbiyyat gəlir. Bu və digər tarixi şəxslərin, əlbəttə ki, üstün şəkildə bildikləri digər sahələr də mövcud idi. Amma hər birinin mütəxəssis olduğu və ön plana çıxdığı əsas bir sahə vardı. Çünki bir insan həm riyaziyyatda, həm biologiyada, həm tarixdə, həm ədəbiyyatda eyni zamanda mütəxəssis ola bilməz. Bu, Albert Eynşteyn olsa belə mümkün deyil. Elə isə biz niyə uşaqlardan, yeniyetmələrdən hər şeyi bilmələrini, qavramalarını, bütün fənlər üzrə yüksək qiymətlər almalarını gözləyirik? Niyə bizim təhsilimiz bəlli bir müddət sonra şagirdin həvəsinə, qabiliyyətinə uyğun olaraq istiqamətlərə bölünmür? Məsələn, məktəbin 12 illik təhsil sistemində ilk 9 ili bütün fənlər, daha sonra imtahan və müsahibələrlə istiqamətlərə bölünüb, son 3 ili hər bir şagird sırf öz istiqamətinə uyğun fənlər üzrə daha çox dərs alsa, görəsən bu daha effektiv olmazdımı? Axı şagird qərarını verib, riyaziyyatçı olacaq, universitetdə də riyaziyyat fakültəsini seçəcək. Sən də müəllimi olaraq onun bu sahəyə daha uyğun olduğunu bilir və təsdiqləyirsən. Elə isə, o niyə digər fənlər ilə eyni dərəcədə, eyni saat miqdarında təhsil almalıdır? Yəni bundan sonra onun musiqi, ya da idman dərslərinə girməsinin nə kimi vacibliyi var? Ya da tam tərsi, musiqiçi və ya idmançı olmaq istəyən birisi, seçimini də bu yöndə edibsə və müəllimləri də onun bu yöndəki istedadını təsdiqləyirsə, onda bu uşağı riyaziyyat, kimya kimi dərslərdə süründürməyin mənası nədir? Universitetə hazırlaşdığı son illərdə bütün gücü ilə sadəcə sevdiyi, seçdiyi sahə üzrə hazırlaşsa, o sahəyə uyğun dərslərə daxil olsa, əminəm ki, universitet həyatına da 1:0 öndə başlamış olar...

**Anar RAFİQOĞLU**
*"Era Teatrı"nın bədii rəhbəri, rejissor*

# ÜMİD HEÇ VAXT ÖLMƏZ



**14** yaşlı qız ailənin böyük qızı idi. 8-ci sinfə yeni başlamışdı və çox xoşbəxt idi. Hər şeyə gülürdü, gülməyi çox sevirdi. Bu qız 1-ci sinifdən 7-ci sinfə kimi dəcəl qız olmuşdu. Özünü uşaq kimi aparmağı sevirdi. Hər gün biriylə dalaşırdı, oğlan kimi rəftar edirdi. O qədər dəcəl idi ki, müəllimlər hər gün valideynlərinə şikayət edirdilər. Qız nə qədər dəcəl olsa da oxumağı və rəsm çəkməyi çox sevirdi. Ancaq valideynləri qızın oxumağını istəmirdilər, məktəbə getməsini belə istəmirdilər.

Və qız artıq 8-ci sinfə çatmışdı, 8-ci sinifdə artıq qız kimi rəftar edir, dəcəlliyini az da olsa yığışdırmışdı. Və o gün gəlib çatır: qızın anası qızının böyüdüyünü düşünüb qızını nişanlandırmağa qərar verir, qızının fikirlərini, hisslərini nəzərə almadan onu 28 yaşındakı bir adamla nişanlayır. O gündən sonra qızın üzü gülmür, həyatdan küsür, heç nəyə həvəsi qalmır, həyat ondan ötrü maraqsızlaşır. Anası qızın hər gün üstünə gedərək oğlanla danışmağını istəyir, qız isə hər gün ağlayır, anasına bu adamla olmaq, danışmaq istəmədiyini başa salmağa çalışır, ancaq anası dinləmir, qızının hisslərini saymır və bir ilin hər günü qız üçün kədərlə ötüb keçir. Ana qızının vəziyyətini görsə də vecinə almır və ya vecinə alsa da başqalarının dediklərinə qulaq asır, qızına "biz nişanı geri eləsək xalq nə deyər?" deyib keçir. Qız isə fikrindən əsla vaz keçmir, ümidini itirmir. Bu nişanın geri olacağını hiss edir. Bu bir il boyunca qız anasıyla hər gün danışır, hər gün ağlayır, anası isə yenə də fikrindən dönmür.

8-ci sinfin bitməyinə az qalmışdır. Qız anasıyla son dəfə danışmağı qərara alır və oturub anasıyla yenidən danışır. Əvvəlcə anasını qucaqlayır və ağlamağa başlayır, anasına deyir: "Mən xoşbəxt deyiləm, heç vaxt da xoşbəxt olmayacam, mən heç vaxt o adamı sevməyəcəm, sonda mən onunla evlənsəm də axırı pis olacaq və üzümü heç vaxt görməyəcəksən, məni həmişəlik itirəcəksən". Bu sözlərdən sonra ana özünə gəlir, gözündən qara pərdə qalxır və qızını bərk qucaqlayıb deyir: "Bu neçə vaxtda sənin necə də üzgün olduğunu görmədim, görsəm də hər şey yaxşı olar deyə düşündüm, xalq nə deyər dedim, amma artıq kim nə deyər deyə yox, tək sənin xoşbəxtliyin üçün çalışacam, sənin xoşbəxtliyin üçün əlimdən gələni edəcəm, əvvəlcə bu nişanı geri edəcəm. Sənə söz verirəm, qızım, sənin istəmədiyin heç nəyi sənə etdirməyəcəm və səni sevmədiyin bir insana ərə verməyəcəm, sənin gözündən bir damla belə kədərdən yaş axmağına icazə verməyəcəm". O gündən sonra qız sevincli və xoşbəxt hallarına geri dönür. O, təhsilini davam etdirir və sonda tanınmış rəssamlardan biri olur.

Ümid yaxşı bir şeydir, bəlkə də ən yaxşı şeydir və yaxşı şeylər heç vaxt ölməz...

Ümidinizi itirməyin.

Unutmayın! Geriyə qayıdıb başlanğıcı dəyişə bilməzsiniz. Ancaq dayandığınız yerdən başlayıb hekayənin sonunu dəyişə bilərsiniz.

**İnara Mamedova**
*Kalinin ictimai məktəbinin 11-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Dördüncü silsilədə Uruz tədricən artıq vaxtı yetişməmiş halda öz əsir götürəninə hücuma keçir, dağda-daşda onun atasının çox qaçdığını və qız-gəlinini qabağında oynatdığını, çox fırlandığını, atla Qarun elinə çapıb, çatdığını Ağ hasarın qalasının bürcünü yıxdığını və ağ gümüş gətirəndə "heçdir, puçdur" söylədiyini, qızıl-altun gətirəndə adicə "misdir" dediyini, ala gözlü qız-gəlini gətirəndə aldanmadığını, kilsəsini yıxıb orada məscid tikdirdiyini xatırladır. Və nəhayət, bu silsilənin şeirlərinin leytmotivini yenə də təkrarlayır. Onda da özünü öyməmiş, çünki kişiyə yaraşmayan hal kimi hesab etmişdir və indi də onun öz əslinə, öz kökünə xain çıxmaqdansa ölümü qarşılamağı üstün tutur.

Bu şeirin əsas ritm ünsürü olaraq mənsubiyyət affiksləri və xəbərin əmr, istərsə də inkar forması, ritmik struktur bizə bu cür mənzərəni verir: **ababab**, sonra gəlir: **bbbbbbbb**, son dörd sətir bu cürdür: **dd/qq**. Bu şeirin ritmik strukturuna gəldikdə isə o diqqət çəkir və bu cür təqdim olunur: ilk dörd sətrin xitabı belədir: 1) 2+2+4=4/4; 2) 2+2+2+2=4/4; 3) 4+4=4/4; 4) 2+2+3=4/3. Növbəti iki sətir on iki hecalıdır: 2+2+4+1+3=(4/4/4=12), 3+2+3+2+2=(5+5+2=12); Növbəti iki sətir isə on bir hecalıdır: 1+2+4+2+2=(3/4/4=11), 1+2+4+2+2=(3/4/4=11). Sonra ikisi 13 və 17 hecalıdırlar, ritmik sxemdən çıxan sətirdən sonra, on hecalı xitab: 4+2+2+2 (4+4+2=10) və 3+3+4=10. Sətirlər arasında ritmik sistemin pozulması halı baş verir (12/8/15/4/12/6). Bu şeirin ritmik strukturu üzərinə ona görə diqqət yetirdim ki, o, yuxarıda müzakirə olunanlardan fərqli olaraq daha requlyar, sistematik xarakter daşıyır və onu da bizə deyir ki, inkişafın bu mərhələsində şeirin qitə növünün yaranması ənənəsi özünü göstərir. Bu da sonra xalq poeziyasında inkişaf edir.

Beşinci silsilədə Qazan özünü sanki ağ sazın aslanından kökü olduğunu, ala qaz tək otlamağa düzlərində bir at qoymadığını, qorxu bilməz qurd balası erkəyindən kökü olduğunu, qorxusundan çobanların qoyunları otara bilmədiyini, ağ sunqur quşunun erkəyi tək bir kökü olduğunu, qorxusundan ala ördək, qara qazın suya qonmadığını göstərir. Qazanın əsil-nəcabəti haqqında danışmışam və bir daha təkrar etməyəcəyəm.

Halbuki konkret halda diqqətəlayiqdir ki, düşmənlərə öz oğlu Uruzu və qardaşı Qaragünəni xatırladır. Xəbər tutub qolundakı şahinini sağ qoymayacaqlarını bildirir. Halbuki bu şeirin son akkordu bütün müzakirə olunan şeirlər kimi onunla bitir ki, Qazan öz əslinə, öz kökünə xain çıxmaqdansa ölümü qarşılamağı üstün tutur. Bu şeirin ritmik sxemi belədir: ritm vahidinin sözlər qrupu: **(erkəgində) bir köküm var.** Bu da ki, semantik olaraq gələcək sətirdə baş verəcək hadisəni şərtləndirir. Qısası, sxem belə görünür: **abababab**. Sonra onu altı sətir **ss/qq/ff** əvəz edir. Bu şeirin ritmik sxemi tənzim olunmamışdır və hecaların sayına uyğun olaraq bu cür mənzərəni bizə təqdim edir: 1) 16, 2) 15, 3) 11, 4) 10, 5) 14, 6) 13, 7) 14, 8) 12 və sair.

Son silsilədə Qazan artıq lənətləməkdən-qarğamaqdan çəkinmir: ***"İt kimi mırıldayan cərkəz donuzlusan sən, kiçik donuz şülənin, torba saman döşəyin, yarım kərpic yasdığın, yonma ağac tanrındır"***. Bir neçə əlamət ilə diqqəti cəlb edən bu silsilə bu təhqirlərlə sona yetir. Bu, hər şeydən öncə psixoloji baxımdan maraqlıdır. Qazanın dialoqu nisbətən sakit avazla başlayır, səbir kasası daşanda təhdid öz yerini alır. Nəhayət, səbir kasasını aşan təhdid-lənətləməklə başlayır. İkincisi də, bu təhqir konkret tayfaya, ələlxüsus, Qazanı əsir götürən və ya da ümumilikdə sayıq düşmən hesab olunan çərkəzlərə yönəldilib. Müəyyən olunduğu kimi, o dövrlər çərkəzlər müsəlman deyildilər və bizə xristian olaraq təqdim olunurlar ki, bu da Qafqaz xalqlarının dininin öyrənilməsində çox diqqətəlayiqdir.

İndi qısaca ritm barədə. Beş sətir bir ritm ilə qurulub: **aaaaa**, son iki sətrin ritmi **m-əni/s-əni**-dir, belə ki: **ss**. Ritmik çertyoja gəldikdə, bu cürdür: 1) 1+2+2+2+2+2 (3+4+4-11), 2) 3+2+3/8, 3) 1+2+2+3=8, 4) 2+2+3=7, 5) 2+2+3=7, 6) 3+2=5. Sonrakı sətir isə bu cür hecalar münasibətini verir: 3+4+2+3+1//7/6. Bu şeirin sonunda yuxarıda müzakirə olunan şeiri bir semantik çevrəyə çevirən leytmotivi və mövzunu başa çatdırır. Başqa cür olaraq o, bu silsilə sisteminin əsaslar əsasıdır.

Qazanın bu geniş monoloqunun təhlilindən sonra, nəhayət, bir nəticə çıxara bilərik: birincisi, türk şeiri inkişafın qitə sisteminin səviyyəsinə hələ nail olmamışdır; ikincisi, müvafiq olaraq silsilə növümüz vardır ki, bu da bir semantik mövzuya, istərsə də ümumi motivə əsaslanır və sətirlərin sayını və qarşılıqlı münasibətlərini nəzərə almır. Və ən başlıcası, sətirlərin ritmik münasibəti ilə və yaxud hecaların bərabərliyinin əlaməti ilə kanon səviyyəsində tənzim olunmamışdır ki, bu da bizə bunları düşündürür: şeirin struktur əsasını iki sətirlik – beyt, dörd sətirli bənd – və sair deyil, sətir yaradır, bu da türk xalq poeziyasında sonralar formalaşmışdır. Halbuki qətiyyətlə demək mümkündür ki, silsilə struktur formalaşmasının əsasını qrammatika, istərsə xəbər, istərsə də isim, əvəzlik və sair ritm yaradır, müxtəlif forma ilə təqdim olunur. Odövrkü şeirin kodlaşdırılmış sisteminin yaradılması, artıq qeyd etdiyim kimi, fonemik səviyyənin zənginliyinə imkan verir ki, bu da başlanğıc, aralıq, istərsə də axır mövqedə şaquli və üfüqi məhvərdə identik səslərin, hecaların, sözlərin, kəlmələrin təkrarı ilə yaranır. Bunu yuxarıda müzakirə olunan şeirlər də təsdiqləyir. Bu fonemik layı gözdən keçirsək buna əmin ola bilərik, məsələn: ilk silsilədə, artıq qeyd etdiyim kimi, orta mövqedə **yağı gördümisə** kəlməsi doqquz dəfə şaquli məhvərdə təkrarlanır. Və ya da elə həmin şeirin **"Kəndü əslim, kəndü köküm sımağım yoq!"** sətri.

İkinci silsilədə başlanğıc mövqedə üfüqi olaraq **yüksək yüksək** və ya da şaquli olaraq **Qaba ökcəm, qaba ökcəmlə, qaba-qaba bəglər, qamçı salub** və sətrin başlanğıc mövqeyində **varkuc kır** və ya da başlanğıc mövqedə **q** səsinin yeddi dəfə təkrarlanması, eləcə də **sarp, sağ, altun, altı** və sair. Düşünürəm ki, gətirilən material bizim baxış dairəmizin etibarlılığı üçün doğrudan da kifayətdir və bu barədə söhbəti uzatmağı məqsədyönlü hesab etmirəm.

İndi "Dədə Qoqqud"un, bu qəhrəmanlıq eposunun əxlaqi-estetik inamı və mənəvi-etik aləmini tamamilə biruzə verən təcəssümlüyə toxunmalıyıq.

Yuxarıda artıq eposun giriş hissəsində geniş şəkildə söhbət etdim ki, "Dədə Qorqud" oğuz xalqının əxlaq və etik-estetik inamı məcəlləsinə məxsusdur və faktiki olaraq onu təmsil edir. Buna görə bunun üzərində bir daha dayanmayacağam.

Bu təhlil olunan eposun ümumi olaraq bədii xüsusiyyətliliyi, onu yaradan ruh, hər şeydən öncə onun təbiiliyində, daha uyğun gələn şəkildə o real təbiətin mühitində özünə yer tapır: yüksək, nəhəng dağları ilə (Ala dağ, Qazılıq (Qafqaz dağı)), şırıltılı, coşqun çayları, maral və ceyranların cövlan etdiyi geniş düzənliklər, qorxu yaradan pələnglər, şirlər və sair. Qısası, köçəri Oğuz tayfalarının köçəri olduğu, yaşamalı olduğu toxunulmaz hökmran təbiət. Məhz elə bu günahsız təbiətin ağuşunda öz həyat tərzlərini həyata keçirirdilər: müxtəlif rəngli, istərsə də qızıl başlı çadırlarını qururdular, ziyafətlər və kef məclisləri verirdilər, daim ov ovlayırdılar və ən başlıcası, başqa xalqları işğal etmək üçün hücuma keçirdilər və ya onların hücumlarının qarşısını alırdılar. Məhz elə bu hücumlar zamanı oğuz, istər bəy olsun, istərsə də çoban, öz igidliyini, mübarizə qabiliyyətini və həvəsini göstərirdi. Eləcə də uşağın olmasına, istərsə də övladsızlığa böyük diqqət yetirirdilər, lakin oğlanın doğulmasına böyük üstünlük verirdilər. Eyni zamanda, oğlanın adının qoyulması və evləndirilməsi möhkəm ənənəvi qayda ilə keçirilirdi. Həmçinin ana-oğul və ata-oğul münasibətləri də formalaşmış əxlaq məcəlləsinə və sair əsaslanırdı. Nəhayət, bütün bunlara islam mürəbbiləri ilə və dini ayinləri ilə cəmləşdirilmiş və gözəlləşdirilmiş fasad əlavə olunur. Və ən başlıcası, bunu təbii, sadə oğuz dili obrazlı söz canlandırır və bədii geyimə bürüyür. Yaradıcısı, hər halda, oğuz xalqının yaradıcılıq istedadının olduğu böyük bədii kətan yaranır.

Müxtəlif boyalarla sərgilənən bu eposun bədii kətanı ümumən belədir, lakin bir semantik və estetik arealda onu birləşdirən və bu gün də dinləyicini, istərsə də oxucunu heyran edən bir aspektdə istiqaməti dəyşdirilib.

Doğrudur, eposda fəaliyyətdə olan qadınların xarakteri və təbiəti barədə əvvəl artıq bir neçə dəfə müzakirə etdim, lakin oğuz xalqının qadınlara qarşı etik-estetik münasibətinə daha geniş toxunmağa borcluyam.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:

**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## URBANİZASİYA

### 24. VELOSİPED – NİDERLANDIN MÜASİR SİMVOLLARINDAN BİRİ KİMİ



*(əvvəli ötən sayda)*

Niderland cəmiyyəti dinamik, hərəkətli cəmiyyətdir. Az qala beşikdən çıxandan məzara gedənədək bu cəmiyyətin üzvləri hərəkətdədir. Bunu piyada gəzən, səhər-axşam deməyib, yüyürən-qaçan, velosipedlərdə harasa gedib-gələn, şütüyən maşınları ilə işinə-gücünə tələsən insanların hər yerdə gözə dəyməsi də təsdiqləyir. Niderlandda velosipedlərin sayı insanların sayından xeyli çoxdur. Ölkədə əhalinin sayının 18 milyondan az, velosiped parkının isə 21-22 milyon işlək velosipeddən ibarət olduğunu, ölkə əhalisinin 90 faizindən çoxunun velosipeddən istifadə etdiyini bilsəniz, mənim heç bir mübaliğəyə, şişirtməyə varmadığımı özünüz də təsdiqləyərsiniz. İşlək velosiped sözlərini də bilərəkdən istifadə edirəm. Nədən ki, hər gün yüzlərlə velosiped istifadədən çıxır. Onların bəzisi istifadəyə yararlı olmadığından metal qırıntısı kimi təkrar emala göndərilir. Bir qismi oğurlanaraq ölkədən çıxarılır. Böyük bir qismi isə ikinci əl məhsulu kimi xarici ölkələrə daşınır. Bir hissəsi isə sürücülərinin səhlənkarlığı və ya əlverişsiz hava ucbatından kanallara düşür, bunu da kanallar təmizlənərkən, çıxarılan və artıq istifadəyə yararsız velosipedlərin çoxluğundan görmək olar.

İstifadədən çıxmış velosipedləri isə yeniləri, daha təkmil yeni modellər əvəz edir. Yeni model demiş, Niderlandda velosipedin onlarla modelinə rast gəlmək mümkündür. Bir təkərli, iki, üç, dörd təkərli velosipedlərlə hər yerdə rastlaşa bilərsən. Adi pedalla hərəkətə gətirilən klassik velosipedlərlə yanaşı, elektriklə çalışan və ya hibrid velosipedlər də çoxdur. Təyinatına görə də velosipedlər bir-birindən fərqlənir. Yükdaşıyan, sərnişin, əsasən də uşaq daşıyan, xəstələrə və əlillərə xidmət edən velosipedlər çoxluğu ilə diqqəti cəlb edir. Yetər ki, sən əlini cibinə salasan. Hər zövqə, hər büdcəyə uyğun məhsul var. Çox pul sayarsan, daha yaxşısını alarsan, az pula alınanın da öz dəyəri var. Keçəl halva yeyir, puluna minnət deyimimizi sanki atalarımız bunu nəzərə alaraq söyləyiblər. Əlillərə bələdiyyələrin xüsusi elektrovelomobillər verdiyi də faktdır. Bunun üçün bələdiyyəyə baş vurmaq, əlilliyini təsdiqləyən sənədlər təqdim etmək lazım gəlir. Belə minik vasitəsinə malik olan əlilin kimsəyə ehtiyacı olmur. O, dükan-bazara bu nəqliyyat vasitəsilə sərbəst gedib-gələ bilir.

Böyük şəhərlərin meydanlarında, küçə və səkilərin hərəkət az olan hissələrində, dəmiryolu vağzallarının, metro stansiyalarının, avtovağzalların, alış-veriş mərkəzlərinin qarşısında park edilmiş velosipedlərin çoxluğu, küçələrdə bir-birinə toxunmadan hərəkət edən yüzlərlə, minlərlə velosipedin qaynaşması adama yuvasına yem daşıyan qarışqaları xatırladır. Elə bu velosipedlər də nəsə daşımaqla məşğuldur. Sərnişinlərilə bərabər velosipedlər onların yüklərini də daşıyır. Velosipedlərin qabaq hissəsinə bənd edilmiş xüsusi taxta və plastik qutularda, qarğı səbətlərdə evinə və ya başqa bir yerə nələrsə aparıb-gətirən velosiped minlərlədir. Qadınların velosipedləri daha süslü, bərli-bəzəkli olur. Onlar velosipedlərini süni, bəzən də təbii güllərlə bəzəməyi daha çox sevirlər. Uşaqların velosipedləri də müxtəlif bayraqcıqlarla, rəngarəng işıqlarla bəzədilir. Həm də uşaq velosipedləri parlaq boyaları ilə diqqəti cəlb edir.

Niyə 18 milyondan az əhalisi olan ölkədə velosipedlərin sayı bu qədər çoxdur? Bu, ölkədə velosipedə sevginin aşırı dərəcədə olması iləmi bağlıdır, yoxsa bunun bilinməyən bir səbəbi var? Fikrimizi bu suallara cavab verməyə cəhd etməklə aydınlaşdıraq.

Hollandlar gözlərini açıb bu dünyaya gəldikləri andan velosipedin onların həyatının bir parçası olduğunu görürlər. Ailənin böyük üzvlərinin velosiped sevdasının kiçik yaşlarından uşaqlara keçdiyini də güman edə bilərik. Nədən ki, ayağı yenicə yer tutan uşağın pedalsız sadə velosipedə mindirilməsi, həmin uşağın heç kimin yardımına ehtiyac duymadan velosipedi idarə etməsi burada ənənə halını alıb. Üstəgəl, uşağın velosipeddən yıxılacağı qorxusu da yox. Çünki hollandlar uşağın yıxılmasına təbii bir hadisə kimi yanaşır, yerli-yersiz uşağa qayğı göstərməyin onun tərbiyəsinə mənfi təsir göstərəcəyini düşünürlər. Bir-iki yaşından velosiped sürməyi öyrənən uşaq sərbəstlik, özünə inam qazanır, ictimai yerlərdə necə hərəkət etməyi, ən başlıcası isə müstəqil idarə etməni, idarə edilən kiçik, pedalsız velik olsa belə öyrənir. Velosipedə ilk uşaqlığında minən Niderland insanı ondan hərəkət qabiliyyətini itirdikdə və ya bir az kobud səslənsə də, yalnız öləndə enir. Bir az da dərinə getsək, yalnız ölüm bu insanları velosipeddən düşürməyə müvəffəq olur. Bu, mübaliğəsiz belədir. 80-90 yaşlı qadın və ya kişinin heç kimin yardımı olmadan velosipedə minərək öz işlərinin ardınca getməsi burada kiminsə təəccübünə səbəb olmayacaq qədər adi hadisədir.

Niderland insanlarının velosiped sevdası mənə nədənsə əski atlı xalqların – türklərin, monqolların at belində doğulmalarını, yaşamalarını, elə at belində də ölmələrini xatırladır. Atın bu xalqların milli rəmzlərindən birinə çevrilməsi də gerçəklikdir. Ata süvar olmağın bu xalqların məişətindən mədəniyyətinə, siyasətindən dininə, iqtisadiyyatına qədər yansıdığını da söyləyə bilərik.

Tarixə baş vurmuşkən, velosipedin yaxın tarixin icadı olmasını da söyləyim. Bu minik vasitəsinin tarixini öyrənmək üçün dağa-daşa düşməyə, arxeoloq olub torpaq eşələməyə də gərək yoxdur. İnterneti bir az qurcalayıb, axtarışa verdinmi onun tarixinə dair çoxsaylı məlumatlar tapmağın suiçimi qədər asandır.

Velosiped də digər nəqliyyat vasitələri kimi insanın zamana qalib gəlmək, məsafənin hakimi olmaq istəyindən doğmuş, qısa müddətdə təkmilləşdirilərək, müxtəlif modelləri yaradılmış, şükürlər olsun ki, hələ də insana xidmət etməkdədir.

Əgər atla velosipedi müqayisə analogiyamızı uğurlu saysaq, onda velosipedin də hollandların həyatında belə bir rola malik olduğunu, onun milli nişana, müasir simvola çevrildiyini söyləyə bilərik. Niderland deyərkən, ağla ilk gələn lalələr, yel dəyirmanları, holland pendiri və sair olur. Bunların üzərinə holland velosipedini də əlavə etdikmi Niderlandın bütöv obrazını canlandırmış sayılarıq. Burada dolaşan bir deyimi də verim: "Velosipedin varsa, sən kralsan". Sözarası qeyd edim ki, Niderland kralının, ölkənin baş nazirinin velosipedlə gəzintiyə çıxdıqlarını da söyləyirlər. Nə yalan söyləyim, mən bunu gözümlə görməmişəm. Eşitdiklərimə də ağız sözü, şaiyə kimi yox, gerçəyin özü kimi inanıram. O üzdən ki, burada insanların dəbdəbədən uzaq, həyatı mürəkkəbləşdirmədən adi yaşayışlarını dəfələrlə müşahidə etmək imkanım olub.

Velosiped sözün bütün mənalarında ucuz nəqliyyat vasitəsidir. Hərçənd ki, hazırda dəyəri 5-10 min avro olan velosipedlər də istehsal olunur. Onlar bahalığına görə sayca azlıq təşkil edir. Sən aşağı və ya orta təbəqədənsənsə, 100-200 avroluq velosipedlə də keçinə bilərsən. Lap ikinci əl – "sekond hand" velosipedlə də işini aşırmaq imkanın var. İşlənmiş velosipedləri 40-50 avroya, lap uzağı 70-80 avroya da əldə etmək mümkündür. Hətta soraqlaşıb, heç bir pul-para vermədən də velosiped sahibi ola bilərsən. Bu barədə elanlara dəfələrlə rast gəlmişəm. Belə ucuz velosiped oğurlananda adama bir o qədər də yer eləmir. Uzağı "aparıblar canım sağ olsun, birini də tapıb alaram", - deyirsən.

Orasını da demədən keçməyim, bu velosiped oğurluğu burada at oğurluğu kimi bir şeydir. O üzdən də gərək velosipedini bərk saxlayasan, kilidini bağlayıb-bağlamadığına nəzarət edəsən. Demirlərmi, özünü möhkəm saxla, qonşunu oğru tutma. Bizim bu məsəlimiz Niderlandda da keçərlidir. Oğurlanmış velosipedə görə polisə müraciət etməyin də çox zaman doğru-dürüst bir nəticə vermir. Demişdik ha, ölkədə velosiped bolluğudur. Bu şoğəriblərin də hamısı bir-birinə bənzəyir. Polis nə etməlidir? Elə bir sənədi yox, dövlət qeydiyyat nişanı yox. Yalnız xüsusi çiplərlə təchiz edilmiş velosipedlərin axtarışı müsbət nəticə verə bilər. Bu model velosipedlər isə azdır, həmin o 5-10 min avroya satılanlardır. Çox zaman sahibləri maşın qiymətinə aldıqları bu velosipedləri mənzillərində və ya xüsusi qarajlarda saxlayırlar. Başqa cür necə ola bilər ki, bir ətək pul verib alıblar.

*(ardı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
**Niderland**

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

Yeni YOL

15 NOYABR
2022-Cİ İL
№ 021 (168)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “ახალი გზა” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## BOLNİSİDƏ ŞƏHİD ELVİN ƏLİMƏRDANOVUN ADINA BULAĞIN AÇILIŞI OLUB



Bolnisi rayonunun Saraclı kəndində Vətən müharibəsi şəhidi Elvin Əlimərdanovun adına olan bulağın açılışı olub.

Açılış mərasimində şəhidin doğmaları və kənd sakinləri ilə yanaşı, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, səfirliyin əməkdaşları və Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay iştirak ediblər.

Elvin Əlimərdanovun xatirəsinə təşkil olunmuş ehsan süfrəsində əvvəlcə Qarabağ şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra çıxış edən səfir Faiq Quliyev qeyd edib ki, Azərbaycan xalqı və dünya azərbaycanlıları Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu ətrafında birləşərək 44 günlük Vətən müharibəsində tarixi qələbə əldə edib.

***“Biz müharibə dövründə Gürcüstanda yaşayan soydaşlarımızın, kiçikdən böyüyədək hamının mənəvi vətənlərinə möhkəm bağlılığını hiss etdik və gördük”***, - səfir vurğulayıb.

Faiq Quliyev əlavə edib ki, Türkiyə müharibə zamanı Azərbaycana böyük siyasi və mənəvi dəstək göstərib. O, Türkiyə səfiri Ali Kaan Orbay və qardaş ölkənin diplomatik nümayəndəliyinin bütün heyətinə minnətdarlıq edib.

Şəhid Elvin Əlimərdanovun atası İlham Əlimərdanov Zəfər Günü münasibətilə Azərbaycan xalqını təbrik edib və göstərilən diqqətə görə minnətdarlığını bildirib.

O, oğlunun Vətənə böyük məhəbbətlə bağlı olduğunu və müharibədə iştirak etmək üçün cəbhəyə könüllü yola düşdüyünü qeyd edib. Vurğulayıb ki, müharibədə snayperçi kimi iştirak edən Elvin Əlimərdanov Suqovuşanda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb və göstərdiyi şücaətlərə görə ölümündən sonra müxtəlif medallarla təltif edilib.

İlham Əlimərdanov şəhid ailələrinə və qazilərə dəstəyinə görə Prezident İlham Əliyevə təşəkkür edib.

*Mənbə: apa.az*

## 2 086 İCTİMAİ MƏKTƏBDƏN YALNIZ 9 MƏKTƏBİN DİREKTORU VAR




Gürcüstanda 2 086 ictimai məktəbdən yalnız 9 məktəbin direktoru var. Bu barədə Təhsilin İdarə Olunması üzrə Məlumat Sistemi “etaloni.ge”yə bildirib.

Məlumata əsasən, yalnız 9 məktəbdə direktorların sertifikatı var. 2022-ci ilin oktyabr ayına olan göstəricilərə görə, 2 077 ictimai məktəbə direktor səlahiyyətlərini icra edən şəxslər rəhbərlik edirlər. Onların əksəriyyəti sertifikatsızdır. Sistemin açıqlamasına əsasən, yalnız 9 ictimai məktəbin sertifikatlı direktoru var.

**Xatırladaq ki, ictimai məktəb direktoru olmaq istəyənlər üçün qeydiyyat oktyabrın 24-dən başlayıb və dekabrın 4-nə kimi davam edəcək. Qeydiyyat directors.mes.gov.ge veb-səhifəsində aparılır.**

## GƏLƏN İLDƏN DÖVLƏT DİLİ ÜZRƏ HAZIRLIQ PROQRAMLARI HƏYATA KEÇİRİLƏCƏK



Gələn ildən dövlət dili üzrə hazırlıq proqramları başlayacaq. Bu barədə Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin direktor müavini Kaxaber Eradze bildirib.

***“Birinci səviyyədə ilkin mərhələdə kvalifikasiyanı təsdiqləmək üçün veriləcək yeganə sənəd dövlət dili üzrə hazırlıq proqramını keçməyi təsdiq edən sənəddir. Bizim təcrübəmizdə bu, hələ ki, yoxdur. Ancaq gələn ildən dövlət dili üzrə hazırlıq proqramları başlayacaq və bu proqramlar ictimaiyyətin geniş hissəsi üçün əlçatan olacaq. Bu, əsasən gürcü cəmiyyətinə tam və uğurlu inteqrasiya olmaq istəyən qeyri-gürcüdilli əhali üçün nəzərdə tutulub. A1, A2, B1, B2 səviyyələri üzrə sertifikatlar veriləcək”***, – deyə Kaxaber Eradze bildirib.

*Mənbə: etaloni.ge*

## ÜST: GÜRCÜSTANDA UŞAQLARIN 28 %-İ ARTIQ ÇƏKİDƏN ƏZİYYƏT ÇƏKİR




Gürcüstanda uşaqların 28 %-ni artıq çəki narahat edir. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisi tərəfindən yayımlanmış hesabatda yazılıb.

Sənədə əsasən, bu gün Avropada məktəb yaşında olan hər üçüncü uşaq artıq çəkidən əziyyət çəkir. Bu göstərici bir çox ölkədə yüksəlməktədir.

Gürcüstanda uşaqlar arasında bu göstərici 28 % təşkil edir və bu, Avropa ölkələrində orta göstəricidir. Hesabatda ölkənin bu sahədə milli siyasətinin olmadığına görə bu göstəricinin artma ehtimalı da qeyd edilib.

Bildirilir ki, bu gün uşaqlarda artıq çəki və köklük ictimai sağlamlığın əsas problemlərindən biridir. Bu nəticə isə Avropa regionunun 33 ölkəsinin göstəricilərinə əsaslanır. Həmin göstəricilər 2018-2020-ci illərə aiddir. Araşdırmada 6-9 yaşında 411 000 uşaq iştirak edib.

Müəyyən olub ki, araşdırmada iştirak edən ölkələrdə 7-9 yaşlı uşaqların 29 %-ni artıq çəki narahat edir. Artıq çəki oğlanlarda (31 %) qızlara nisbətən (28 %) daha çox yayılıb.

## GÜRCÜSTAN POLŞA İLƏ BİRGƏ PUA İSTEHSALINA BAŞLAYACAQ



Gürcüstan Polşa ilə birlikdə yeni pilotsuz uçuş aparatı (PUA) istehsal etmək niyyətindədir. Bunun üçün Tbilisi yaxınlığında Gürcüstan-Polşa “Delta –Vebe” zavodu tikilir.

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze zavoda baş çəkərək işlərin gedişi ilə maraqlanıb.

Gürcüstanın Müdafiə Nazirliyindən bildirilib ki, zavodun tikintisi yaxın vaxtlarda başa çatdırılacaq.

C.Burçuladze qeyd edib ki, müəssisə yaxın vaxtlarda Gürcüstan PUA-larını istehsal edəcək.

Qeyd edək ki, “Delta-Vebe” Gürcüstan-Polşa şirkəti Polşanın “WB Electronics” şirkəti ilə Gürcüstanın “Delta” dövlət hərbi elmi-texniki mərkəzi arasında imzalanmış müqavilə əsasında yaradılıb.

Sözügedən müəssisədə gürcü və polşalı mütəxəssislər pilotsuz uçuş aparatlarının istehsalı mövzusunda birgə çalışacaqlar.

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:**
Azər MUSAOĞLU
**Yayım direktoru:**
Hacı BƏKİROĞLU
**Qrafik dizayn:**
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.